BİZİM ŞUAR:

"NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"

UNUTMA!

1813-1828-ci illərə qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik ərraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

1918-1920-ci illərdə cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyəz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə "yoldaş" Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Erməzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

1988-ci ildə Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

1988-1993-cü illərdə aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

Şuşa şəhəri	**- (289 kv.km)**	**- 8.05.1992**
Laçın rayonu	**- (1835 kv.km)**	**- 17.05.1992**
Kəlbəcər rayonu	**- (1936 kv.km)**	**- 2.04.1993**
Ağdam rayonu	**- (1094 kv.km)**	**- 23.07.1993**
Cəbrayıl rayonu	**- (1050 kv.km)**	**- 18.08.1993**
Füzuli rayonu	**- (1386 kv.km)**	**- 23.08.1993**
Qubadlı rayonu	**- (802 kv.km)**	**- 31.08.1993**
Zəngilan rayonu	**- (707 kv.km)**	**- 29.10.1993**

Oyunlar baku2015.com saytında canlı yayımlanacaq

"Bakı-2015"-in rəqəmsal ekosistemi qısa vaxt - dan sonra "Oyun zamanı" rejimində çalışacaq. Rəqəmsal ekosistemin inteqrasiyası üzərində tamamlama işləri çatdırılıb və sistem veb və sosial media platformalarından istifadə etməklə istifadəçiyə yaxşı təcrübə bəxş edəcək.

Avropa Oyunlarında şəbəkənin olması baku2015.com rəsmi saytı vasitəsilə mərkəzləşdirilir. Burada iyundan 12-dən 28-dək bütün videolar və idman yarışları canlı göstəriləcək. Saytda yarışlar haqqında tam məlumatlar, o cümlədən son xəbərlər, nəticələr, gündəlik qrafiklər, medal cədvəlləri və yarışlarda iştirak edəcək 6 min idmançının tərcümeyihalı yerləşdirilir.

Oyunlar üçün çoxfunksiyalı təlimatlar da daxil olmaqla "Bakı-2015" mobil proqramı ötən həftə hazırlanıb. Proqram, həmçinin "Baku-2015"in bütün yarışlarının canlı yayımını, habelə idman məkanları, idman növləri və idmançılar üzrə səhnəarası məlumatları da təqdim edəcək.

Açılış mərasimi Bakı vaxtı ilə 21:00-da baku2015.com saytında və youtube-da canlı yayımlanacaq.

Bundan başqa, mobil proqram istifadəçiləri idman və mədəni tədbirləri izləmək üçün Twitter, Facebook, YouTube, və Instagram kimi səhifələrdən istifadə edə biləcək.

Bu nadir çoxkanallı yanaşma istifadəçiləri "Bakı-2015" yarışlarına daha da yaxınlaşdırmaqla yanaşı, Azərbaycan paytaxtının cəlbedici - liyini və burada olan mühiti yaddaşlarına köçürür. Bu yanaşma media və platformaların birlikdə işlənməsi nəticəsində innovativ təcrübədən yaranıb.

"Bakı-2015" mobil proqramı iOS, Android, Windows Phone-dan yükləmə bilər.

HƏKİM MƏSLƏHƏTİ

İSTİVURMA, GÜNVURMA ZAMANI İLK TİBBİ YARDIM VƏ PROFİLAKTİKASI

Orqanizmdə temperaturu müvafiq tənzimdici mexanizm normal səviyyədə saxlayır. Bununla belə orqanizmin daxili enerji mübadiləsini azaltmaq imkanı müvafiq dərəcədə olmadığı üçün ətraf mühitdə temperatur yüksəldikdə bu mexanizm istiliyi kifayət qədər xaric edə bilmir. Nəticədə orqanizmdə toplanmış istilik ali sinir və hipofiz-böyrəküstü vəzi sisteminin fəaliyyətini pozur. Dəridə və daxili orqanlarda yerləşən reseptorlar qıcıqlanır. Bu vəziyyət orqanizmin yüksəlmiş temperatura qarşı fərdi həssaslığının və adaptasiya qabiliyyətinin tələb edilən dərəcədə olmaması ilə izah edilir. Eyni zamanda qanın qatılığının artması nəticəsində baş vermiş hemodinamik pozğunluqlar uzunsov beyində yerləşən mərkəzlərin ifliclnə, böyrəküstü vəzin fəaliyyətinin kəskin pozğunluğuna və adaptasion sindromun zəifləməsinə səbəb olur ki, bu da ölüm təhlükəsi törədir.

Beləliklə, bədənin uzun müddət qızması və ya düz günəş şüalarının açıq başa təsiri istivurmaya, günvurmaya səbəb ola bilər. Bu zaman müşahidə edilən kliniki əlamətlərin iki forması ayırd edilir.

Orqanizmin həddən artıq qızmasına qarşı ürəkdamar sisteminin reaksiyası nəticəsində qeflətən baş vermiş qısamüddətli kollaps, adətən, istilik his - siyyatı, baş ağrısı, ürəkdöyünmə, ürəkbulanma, ümumi əzginlik və zəiflik əlamətlərindən sonra dərinin soğun və nəm olması, taxikardiya və hipotoniya əlamətləri ilə aşkar olunur.

Bu zaman həmin şəxsi isti sahədən nisbətən sərin yerə aparır, eynidəki dar palları çıxarıdıqdan sonra ona soyuq su içdirilir, başına soyuq suda islədilmış dəsmal qoyurlar.

Eyni şəraitdə baş vermiş hipertermiya, tər ifrazının kəskin pozğunluğuna, başağrısına, başgicəllənməyə, bəzən psixi pozğunluğa, təngnəfəsliyə, ürəkbulanmaya, ümumi zəiflik və əzginlik hissiyyatına, nəhayət, huşun itməsinə səbəb ola bilər. Bundan sonra temperatur 40-42 dərəcə C°-dək yüksəlir, dəri quru və isti olub, taxikardiya və səthi tənəffüs fonunda müvafiq qanunauyğunluqla koma inkişaf edir. Bu komanı digər xəstəliklər zamanı inkişaf edən komatoz vəziyyətlərdən ayırmaq lazımdır. **İstivurma (günvurma) zamanı inkişaf edən komanın səciyyəvi kliniki əlamətləri bunlardır:**

- psixomotor oyanmadan sonra huşun itməsi, qıcolma, bəzən isə meningial əlamətlər, dəridə hiperemiya, sianoz, yapışqan tər, ağır vəziyyətdə isə dəri quru və isti olur, taxikardiya, zəif nəbz vurğuları müəyyən edilir, Çeyn-Stoks tipli tənəffüs, bəzən əğciyərlərin odemi əlamətləri, qeyriiradi sidik ifrazı və defekasiya aktı müşahidə olunur.

Əlavə kliniki əlamətlər: səciyyəvi anamnez, hipertermiya (40-41 C°), gözdibi damarları genişlənir, görmə siniri məməciyinin sərhəddi silinir, qanda eritrositoza meyillik, leykositoz və ya leykopeniya.

Bu zaman təcili tibbi yardım göstərmək məqsədi ilə xəstəni nisbətən sərin yerə gətirib, onu sıxan dar paltarını çıxarıb, bədəninə soyuq su çəkdikdən sonra başına və qasıq nahiyyəsinə buzla doldurulmuş isitqac qoyurlar. Dərhal venaya 500 ml natrium-xloridin izotonik məhlulu (fizioloji məhlul), 4-6 ml 50 faizli analgin və 6-8 ml 1 faizli laziks məhlulu qarışığı, ərələyə ayrı-ayrılıqda 5 ml 5 faizli askorbin turşusu, 2 ml 5 faizli B6 və 2 ml 5 faizli B1 vitamin məhlulu yeridilir və ehtiyac olsa simptomatik dərman preparatı yeridilir. Zərərçəkənə ilk tibbi yardım göstərdikdən sonra təcili surətdə hospitala və ya yerli xəstəxanalara çatdırmaq lazımdır.

Hərbi qulluqçular arasında istivurmanın (günvurmanın) qarşısını almaq üçün bir sıra profilaktik tədbirlər həyata keçirilməlidir:

- havanın temperaturu və rütubətliliyi yüksək olduqda fiziki iş zamanı orqanizmin həddindən çox qızmasına yol verməmək;

- günəş şüalarının koredici təsiri, üz dərisi və dodaqların günəş yanıqlarından və küləkdən codlaşması, tənəffüs üzvlərinə tozun daxil olmasının qarşısını almaq;

- tərləmədən və istilik stresindən orqanizmin su itirməsi nəticəsində baş verən su-duz balansının pozulmasının qarşısını almaq.

Hərbi qulluqçuların orqanizminin qızması və dehidratasiyasının (susuzlamasının) profilaktikasına aşağıdakılar aiddir:

- istiliyin təsirinə qarşı tədbirlərin aparılması (xidmətin rasional təşkil olunması, fiziki gərginliyinin azaldılması);

- istilikvermənı intensivləşdirən şəraitin təmin olunması (yaxalığın açılması, geyimin isladılması, duş qəbulu, içməli su ilə lazımi səviyyədə təminat);

- xarici mühitdən istiliyin daxil olmasını zəiflədən tədbirlərin aparılması günün ən isti vaxtında tədbirlərin dayandırılması, günəş şüalarının təsirindən mühafizə və hava mübadiləsinin artırılması, temperatur 37 C°-dən çox olduqda geyimlərin çıxarılmasının qadağan edilməsi və s;

- qida qəbulunun çox isti olmayan vaxta keçirilməsi, məsələn, səhər 05:30-06:00-dək, nahar 11:00-13:30-dək, axşam 18:30-19:00-dək olması;

- seçmə üsulu ilə hərbi qulluqçularda termometriya keçirilməsi və nəbzin ölçülməsi (bədən hərarətinin 38 C°-dən yuxarı qalxması, nəbzin isə 140-dan artıq olması istivurma əlamətidir).

Orqanizmin su ilə optimal təminatının təşkili fizioloji-gigiyenik tələblər əsasında dehidratasiyanın (susuzlaşmanın) profilaktikasına yönəldilməlidir:

- hərbi qulluqçuların keyfiyyətli su ilə müəyyən olunmuş normaya müvafiq təminatı;

- hər 30-60 dəqiqədən bir 200-300 ml miqdarında müntəzəm qəydədə içməli ilıq suyun qəbulu;

- susuzluğun səngiməsi üçün 300-400 ml suyun qurtumlarla ağız boşluğunda, bir müddət saxlanılaraq içilməsi, susuzluq hissiyatı azalmadıqda 20-30 dəqiqə sonra göstərilən həcmdə suyun təkrar içilməsi;

- çayın və suyun soyuldulmuş halda (18-20 C°) içilməsi, o cümlədən suya, yaxud çaya meyvə-giləmeyvə ekstraktlarının əlavəsi;

- yoxlanılmamış mənbələrdən suyun həddindən çox və qəydəsiz qəbulunun qadağan edilməsi.

DQBİ-də Tibb xidməti

SÜRÜNƏNLƏR VƏ HƏŞƏRATLAR DİŞLƏYƏN ZAMAN İLK TİBBİ YARDIM

İlan dişləməsi

İlan sancan nahiyədə kiçik yara əmələ gəlməklə orada ağrı, şişkinlik, qızartı, suluqlar yaranır. Xəsarət alanda narahatlıq, həm də üşütmə baş verir, bəzən bayılma da olur, ayıldıqdan sonra isə baş ağrısı, başgicəllənmə hiss olunmaqla mədə bulanması, qusma, susuzluq, udmanın pozulması, İshal, təngnəfəslik və başqa hallar da ola bilər.

Əgər kimisə ilan dişləyibsə, ilk əvvəl İlanın zəhərli və ya zəhərsiz olmasını müəyyənləşdirin.

Zəhərsiz ilan

Zəhərsiz ilanın iki sıra şəklində nöqtəvari diş izləri qalır. Köpək dişinin izi olmur.

Zəhərli ilan

Ən zəhərli ilanın dişləməsi nəticəsində köpək dişinin və digər dişlərin kiçik nöqtə şəklində izləri qalır.

Zəhərli ilan dişləyən zaman görülən tədbirlər:

1) Sakit durun. Dişlənmiş hissəni tərpətməyin. Tərpətdikcə zəhər çox sürətlə bədənə yayılacaq. Əgər dişlənilən yer ayaqdadırsa, yerimək olmaz. Tibbi yardım çağırın.

2) Zəhərin yayılmasının qarşısını almaq üçün dişlənmiş hissəni enli elastik bint, yaxud təmiz parça ilə sarıyın. Nəzarət edin ki, sarğıdan sonra ətrafda nəbz itməsin.

3) Ayaq və ya əldən başlayıb yuxarıyadək bütün ətrafı sarıyın. Nəbzin olmasına əmin olun.

4) Sonra ətrafı tam hərəkətsizləşdirmək üçün şina qoyun.

5) Şəxsi xərəkdə ən yaxın xəstəxanaya aparın. Mümkünsə, ilanı da aparın (Əgər öldürülübsə). Çünki müxtəlif növ ilan zəhərlərinə qarşı müxtəlif antitoksinlər tətbiq olunur. Əgər antitoksini inyeksiya etmək lazım gələrsə, o hazır olanadək sarğını açmayın və bu zaman allergik şok əleyhinə bütün tədbirləri görün. Antitoksin yoxdursa, sarğını açın.

6) Ağrıya qarşı aspirin yox, parasetamol (asetaminfen) verin. Tetanus əleyhinə zərdab vurdurun. Dişlək yeri yoluxubsa, çirklənibsə, antibiotik, ən yaxşı penisillin vurdurun.

7) Ağrını azaltmaq, həmçinin zəhərlənməni zəiflətmək üçün buz kömək edir. Ayağı, yaxud qolu plastik örtük və qalın parça ilə sarıyın və ətrafına əzilmiş buz parçaları düzün.

Xəbərdarlıq: Çox soyuq dəri və əzələni zədələyir, ətraf ağrımağa başlayır. Beləliklə, siz şəxsdən soruşmaqla buzu bir neçə dəqiqəliyə götürə bilərsiniz.

Yara yerindən zəhəri çıxarmaq məqsədi ilə yardım edən şəxsin yaranı ağzı ilə sorması qəti olmaz, çünki zəhər yardım edənin qanına sovrularaq onu zəhərləyə bilər.

Kərtənkələ dişləməsi

Kərtənkələ dişləməsi ilan dişləməsi kimi müalicə olunur, lakin ona qarşı uyğun antitoksin yoxdur. Bəzən xəstənin vəziyyəti çox təhlükəli ola bilər. Bunun üçün dişlənən yeri yaxşı yuyun. Hərəkət etməyin və dişlənən yeri ürək səviyyəsindən aşağıda saxlayın və ilan dişləməsindəki tibbi yardımı tətbiq edin.

Əqrəb dişləməsi

Bazi əqrəblər digərlərinə nisbətən daha çox zəhərli olur. Yaşlılar üçün əqrəblər çox təhlükəli deyil. Bu zaman aspirin qəbul edin və ağrını azaltmaq üçün dişlənən nahiyyəyə buz qoyun. Bəzən həftələr və aylarla davam edən keyiməni və ağrını götürmək üçün sonradan isidici kompreslərdən istifadə etmək olar.

5 yaşından kiçik olan uşaqlar üçün əqrəb dişləməsi, xüsusən dişlənən yer başda və ya bədəndə olduqda çox təhlükelidir.

Bəzi ölkələrdə əqrəb zəhərinə qarşı antitoksin var.

Yaxşı təsir üçün uşağa əqrəb dişlədikdən sonrakı iki saat ərzində inyeksiya edilməlidir. Ağrıya qarşı parasetamol və ya aspirin verin. Uşağın nəfəsi daralırsa, ona ağızdan-ağıza tənəffüs verin. Əgər uşaq çox kiçikdirsə və ya əqrəb onun bədəninin əsas hissəsini dişləyibsə, yaxud əqrəb öldürücü növdəndirsə, təcili olaraq tibbi yardım çağırın.

"Qaraböcək" və başqa hörümçəklərin dişləməsi

Tarantul da daxil olmaqla, əksər böcəklərin dişləməsi ağrılı da olsa, təhlükəli deyil. Bəzi növ hörümçəklər, məsələn, "qaraböcək" böyük adamı dişlədikdə, bu ona çox pis təsir edə bilər. Bu hörümçək kiçik uşaqlar üçün təhlükelidir. "Qaraböcək" dişləməsi nəticəsində bütün bədəndə ağrılı əzələ qıcolması və mədə əzələsində son dərəcə möhkəm ağrılar olur. (Bəzən bunu appendisitlə qarışıq salırlar).

Parasetamol və ya aspirin verin və tibbi yardım çağırın. 10 faizli kalsium-glükonat inyeksiyası əzələ qıcolmasını azaldır. Diazepam da kömək edər. Əgər şok varsa, ona qarşı müalicə aparın. Uşaqlara prednizalon inyeksiyası lazım ola bilər.

Yoluxmuş təhlükəli yaralar

İt dişləməsi, pişik və ya başqa yırtıcı heyvanın cırmaqlaması nəticəsində baş vermiş yoluxmalar təhlükelidir. Aşağıda göstərilən yaralar daha çox təhlükəlidir.

1) Çirkli yaralar və ya çirkli əşya ilə tö rədilmiş yaralar;

2) Deşilmiş və az qan xaric eden dərin yaralar;

3) Heyvanlar saxlanılan yerdə baş vermiş yaralar;

4) Əzilmiş və qançırlı yaralar;

5) İt və digər yırtıcıların dişləməsi nəticəsində əmələ gələn yaralar;

6) Güllə yarası.

İlk tibbi yardım: yaranı sabun və qaynanmış su ilə yuyun. Çirkli, örtmüş qan laxtasını və zədələnmiş toxumaları xaric edin. Bu zaman şprisdən və ya sorucu balondan istifadə edin.

Əgər yara dərindirsə və yaxud orada çirk olma ehtimalı vardırsa, antibiotikdən istifadə edin. Penisillin daha münasibdir, əgər penisillin yoxsa ampisillin, eritromisin, tetrasiklin, kotrimaksozol və sairədən istifadə edin.

Bələ yaralarda heç vaxt tikişdən və leykoplastrdan istifadə etməyin. Yaranı açıq saxlayın. Əgər o çox böyükdürsə, təcrübəli tibb işçisi və yaxud həkim onu sonra bağlaya bilər.

Arı sancması

Arı sancan yerdə kiçik yara əmələ gəlməklə, ona arının zəhəri keçdiyindən, qısa müddətdə həmin nahiyədə ağrı, hərarət, qızartı, şişkinlik və başqa ümumi narahatlıq halları yaranır.

İlk yardım: Yaradan arı neşteri ehtiyatla çıxarılır ki, ora onun neşterinin ucundakı zəhərli hissə partlayıb, zəhər yaraya tökülməsin. Sonra həmin yer (yara) naşatır spirtinin sulu məhlulunda (2/5 nisbətində) islədilmış parça qoymaqla sarınır, onun da üstündən buz qoyulur. Həmin nahiyə mümkün qədər yuxarı qaldırılır. Lazım olarsa, başqa köməklər də göstərilməlidir.

DQBİ-də Tibb xidməti

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 11 (453)
12 iyun 2015-ci il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜ

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra ölkədəki xaos və anarxiya, Azərbaycanın dünya xəritəsindən silinməsi təhlükəsi qısa zamanda aradan qaldırıldı

...Biz o illəri yaxşı xatırlayırıq və bu gün qonşuluqda baş verən hadisələri izləyərkən yenə də əminəm ki, hər bir Azərbaycan vətəndaşı o illərə qayıdır, o illəri xatırlayır və bir daha əmin olur ki, Azərbaycan xalqının böyük xoşbəxtliyi ondan ibarət idi ki, xalqımız həlledici anlarda düzgün seçim etmişdir, müdriklik göstərmişdir və Ulu Öndərə üz tutub onu hakimiyyətə dəvət etmişdir. Əgər Heydər Əliyev o illərdə Azərbaycan rəhbərliyinə gəlməsəydi, ölkə tamamilə dağıla bilərdi.

Ona görə 1993-cü il əslində real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı. Qanunsuz silahlı birləşmələr tərk-silah edildi, separatçı qüvvələrə böyük zərbə vuruldu və Azərbaycan inkişaf yoluna qədəm qoydu.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur.

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət gərginləşdi və hakimiyyət böhranı yarandı. İctimai həyatın bütün sahələrində xaos, hərc-mərclik baş alıb gedirdi. Orduda da vəziyyət ağırlaşırdı. Azərbaycanda hakimiyyət boşluğu yaranmışdı. Genc respublikada rəhbərliyə yiyələnmək üçün ayrı-ayrı şəxslər və qruplar arasında mübarizə son həddə çatmışdır. 1992-ci ilin mayın 14-də hakimiyyəti ələ keçirən Xalq Cəbhəsi ilk gündən özünün qeyri-sağlam fəaliyyəti ilə ölkəni idarə edə bilməyəcəyini göstərirdi. 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı.

Vətənin belə ağır günündə xalq öz görkəmli oğlunu - Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Heydər Əliyev xalqın və hakim dairələrin təkidli dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi.

Ümummilli Lider Heydər Əliyev qısa zaman ərzində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi.

Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi. Bu qayıdış insanların qəlbinə bir inam və rahatlıq toxumu səpdi, ölkənin xilas olduğuna inamı artırdı. Beləliklə, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Bakıya qayıdaraq Azərbaycan parlamentinin sədri seçildiyi gün – 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu təqvim Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Çünki bu gün olmasa idi, nə Azərbaycan, nə də müstəqil dövlət olmayacaqdı. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini, bu gününü özünə qaytardı.

1997-ci ilin iyununda Milli Məclis tərəfindən 15 iyun tarixi Milli Qurtuluş Günü elan edilmişdir.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranıb, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanıb. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, bir tərəfdən, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmış, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında döməcə üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlik - dən və beynəlxalq aləm - də ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqavilələrinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi o ağır günlərdə Heydər Əliyevin xalqın iradəsi ilə ölkə rəhbərliyinə qayıtması Azərbaycan Respublikasını məhv olmaqdan xilas etdi. Bu, əsl mənada, "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyən vətən oğlunun öz xalqı, öz vətəni qarşısında misilsiz fədakarlığı idi.

Onun apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olub.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlayıb.

Ümummilli Liderin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilib. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı əməkdaşlıq prinsipləri təşkil edib.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir. O, Azərbaycanın tarixi inkişaf prosesinə təkan vermişdir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb.

Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

"BAKI-2015"in MƏŞƏLİ PAYTAXTA GƏTİRİLDİ



Birinci Avropa Oyunlarının aprelin 26-da qədim od məbədi olan "Ateşgah"da start götürən məşəli Azərbaycanın hər bir guşəsini gəzib-dolaşaraq 60 ra - yonun sakinlərinə bu Oyunların ruhunu çatdırıb.

Avropa Oyunlarının yoluna işıq saçan məşəl bölgələrə və əfsanəvi Neft Daşlarına səyahə - tini başa çatdırdıqdan sonra iyu - nun 7-də paytaxt Bakıya gətirilib.

Məşəli Bakının Dənizkənarı Milli Parkındakı "Sadko" limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbul edib.

Dənizkənarı Milli Parka toplaşanlar məşəllə irəliləyən dövləti - mizin başçısını "Yaşasın Azərbaycan!", "Prezident İlham Əliyevə eşq olsun!", "Birinci Avropa Oyunlarına uğurlar!" nidaları ilə alqışladılar.

Azərbaycan Prezidenti birinci Avropa Oyunlarının məşəlini Böyük Vətən Müharibəsinin veteranı Fatma Səttarovaya təqdim etdi.

Bununla da birinci Avropa Oyunlarının məşəlinin Bakı estafeti başladı.

Çoxsaylı məşəlçilərin bir-birinə ötürdükləri "Bakı-2015"in məşəli estafet boyunca böyük coşqu ilə qarşılandı.

Paytaxtın Neftçilər prospekti daha izdihamlı idi. "Bakı-2015"in məşəlçisi şərəfinə layiq görülmüş xalq artisti Arif Babayev burada məşəli Azərbaycanın birinci xa - nımı, ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevaya təqdim etdi.

Ümumilikdə, şəhər boyunca məşəl 16 kilometr məsafədə 100 məşəlçi tərəfindən daşındı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı, "Bakı-2015" Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri iyunun 9-da Atletlər Kəndində birinci Avropa Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüşüblər.

Gənclər və idman naziri Azad Rəhimov dövlətimizin başçısına Atletlər Kəndinin VİP qonaqların qəbul zonası barədə məlumat verdi. Binada yaradılan istirahət otağı, protokol zalı, qonaq vəsiqəsini gözləmə ərazisi və digər otaqlar müasir səviyyədədir. Burada yüksək səviyyədə fəaliyyət göstərmək üçün bütün imkanlar yaradılıb.

Sonra Prezident İlham Əliyev birinci Avropa Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə görüşdü.

Azərbaycan idmançılarını ürəkdən salamlayan dövlət başçısı Bakıda keçiriləcək ilk Avropa Oyunlarında onlara uğurlar arzuladı.

Dünya miqyasında ən gözəl Oyunların Azərbaycanda keçiriləcəyinə əminliyini vurğulayan Respublika Prezidenti qeyd etdi ki, qısa müddət ərzində dünya səviyyəli, Yay Olimpiya Oyunları səviyyəsində Oyunlar hazırlamışıq və uğurla keçirəcəyik.

Sonra Prezident İlham Əliyev dedi:

"Komandamız Oyunlarda böyük tərkibdə iştirak edəcək. Xatırlayıram, mən 2000-ci ildən bu günə qədər bütün Yay Olimpiya Oyunlarında olmuşam və adətən idmançılarla görüşmüşəm. Biz idmançıları Oyunlara təntənəli şəkildə yola salırdıq. Bu dəfə isə Avropa ölkələrindən idmançılar Azərbaycana gəlirlər. Deyə bilərəm ki, mən 2000-ci ildən bu günə qədər bütün

Prezident İham Əliyev birinci Avropa Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyəti ilə Atletlər Kəndində görüşüb

Olimpiya kəndlərində olmuşam. Bakıda yaradılan şərait heç bir başqa yerdə olmayıb. Bax, bu Atletlər Kəndi bir memarlıq əsəridir və bizim komandamız artıq burada yerləşib. Xarici qonaqlar da gəlirlər və xüsusi qeyd olunur ki, qısa müddət ərzində belə gözəl şəraitin yaradılması, əlbəttə, tarixi nailiyyətdir.

Avropa Oyunlarının Azərbaycanda artıq ümumxalq məsələsinə çevrildiyini diqqətə çatdıran dövlət başçısı vurğuladı ki, paytaxtımızda keçiriləcək İlk Avropa Oyunları doğrudan da böyük bayramdır, ölkəmiz üçün tarixi hadisədir. Avropa üçün tarixi hadisədir. Belə Oyunlar birinci dəfə keçirilir. Əminəm ki, ən yüksək səviyyədə keçiriləcək.

Dövlətimizin başçısı, xanımı və ailə üzvləri birinci Avropa Oyunlarında Azərbaycanı ayrı-ayrı idman növlərində təmsil edəcək komandalarla xatirə şəkilləri çəkdirdilər.

Qeyd edək ki, "Bakı-2015" birinci Avropa Oyunlarında Azərbaycan nümayəndə heyətinin tərkibinə 291-i idmançı olmaqla ümumilikdə 444 nəfər daxildir.

AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ 2015-ci İL İYULUN 1-dən 30-dək MÜDDƏTLİ HƏQİQİ HƏRBİ XİDMƏTƏ ÇAĞIRILMASI VƏ MÜDDƏTLİ HƏQİQİ HƏRBİ XİDMƏT HƏRBİ QULLUQÇULARININ EHTİYATA BURAXILMASI HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyatlə komplekt - ləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləş - mələrdə müddətli haqiqi hərbi xidmət keçməmiş, müddətli haqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli haqiqi hərbi xid - mətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il iyulun 1-dən 30-dək müddətli haqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli haqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 may 2015-ci il.

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİNİN YÜKSƏK RÜTBƏLİ ZABİTLƏRİ ALİ HƏRBİ MƏKTƏBDƏ OLUB

İki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və əməkdaşlıq uğurla davam etdirilir

Mayın 27-də Türkiyə Silahlı Qüvvələrinin 2-ci Ordu Komandanlığında Qərargah rəisinin müavini general-mayor Metin Alpcanın rəhbərlik etdiyi nümayəndə heyəti Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində olub.

Türkiyə Silahlı Qüvvələrinin və digər hərbi qurumların yüksək rütbəli zabitlərindən ibarət nümayəndə heyətini Ali Hərbi Məktəbdə Daxili Qoşunlar Komandanının müavini-Şəxsi heyət üzrə İdarənin rəisi general-mayor Vidadi Əliyev qəbul edib.

Qonaqları səmimi salamlayan general-mayor V.Əliyev Türkiyə Cümhuriyyətinin Silahlı Qüvvələri, o cümlədən Jandarm Baş Komandanlığı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərindən söz açıb. İki qurum arasında mövcud olan əlaqələrin getdikcə daha sıx müstəvidə davam etdiyini deyən general-mayor V.Əliyev Türkiyə Silahlı Qüvvələrinin Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan zabitlərinin təlim-tədris prosesinin inkişaf etdirilməsindəki önəmli fəaliyyətlərini xüsusilə qeyd edib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Azərbaycan Respublikasında hüquq-mühafizə orqanları ilə birgə daxili tehlükəsizliyin təmin edilməsində və ictimai asayişin qorunmasında önəmli rol oynadığı vurğulanıb.

Qonaqpərvər qəbul üçün təşəkkürünü bildirən general-mayor M.Alpcan Azərbaycan Respublikasına etdiyi səfərdən məmnun qaldığını ifadə edərək, ötən illər ərzində Daxili Qoşunların keçdiyi inkişaf yolunu, qazandığı uğurları sevinc hissi ilə müşahidə etdiklərini bildirib.

Sonra Daxili Qoşunların Ali Hərbi Məktəbi barədə genişməzmunlu brifinq verilib.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, nümayəndə heyəti kursantların təlim-tədris prosesi və onlar üçün yaradılmış şəraitlə də yaxından tanış olublar.

Mətbuat xidməti

HƏRBİ QULLUQÇULARIMIZ XİDMƏTDƏ SAYIQLIQ NÜMAYİŞ ETDİRİB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı tərəfindən şəxsi heyət qarşısında qoyulan ciddi tələblər - xidməti vəzifə borclarının icrasına vicdanla yanaşma, nizam-intizamlı olma, ayıq-sayıqlıq göstərmə və s. bu kimi cəhətləri sıralarımızda xidmət edən hər bir hərbi qulluqçuda görə bilərik. Xüsusən də son günlərdə baş verən mühafizə olunan obyektə daxil olmağa cəhd hallarının qarşısının alınması bir daha şəxsi heyətin xidmətə məsuliyyətlə yanaşmasından və sayıqlıq nümayiş etdirməsindən xəbər verir.

İyunun 9-da, təqribən saat 01:20 radələrində Gürcüstan respublikasının vətəndaşı Nasibov Qunbat 99713 saylı hərbi hissəyə daxil olmağa cəhd göstərərkən postda xidmət aparan komendant bölüyünə atıcı əsgər Abdullayev Əli Elxan oğlu tərəfindən Qarovul və Qarnizon Xidmət Nizamnaməsinin 174-cü maddəsinin tələblərinə əsasən, komandalar verilmiş və vətəndaş təslim olmuşdur. Baş vermiş hadisə ilə bağlı Binəqədi rayon polis İdarəsinin əməkdaşlarına məlumat çatdırılmış və hazırda faktla bağlı araşdırma aparılır.

İyunun 8-də, təqribən saat 21:50 radələrində «Tofiq Bəhramov adına Respubilka stadionunda» xidmət aparan 99713 saylı hərbi hissənin bölmə komandiri baş leytenant Qubadov Neymət Şərafəddin oğlu tərəfindən mühafizə olunan obyektə daxil olmağa cəhd göstərən vətəndaş Əliyev Mübariz saxlanılmış və dərhal ərazidə xidmət göstərən Nərimanov rayon Post Patrul Xidmətinin əməkdaşlarına təhvil verilmişdir.

İyunun 6-da, təqribən saat 11:30 radələrində «Milli stadionda» xidmət aparan xüsusi təyinatlı dəstədə yarımqrup komandiri baş istehkamçı baş gizir İbayev Səma Təvəkkül oğlu, xüsusi təyinatlı dəstədə istehkamçı baş çavuş Qurbanov Rövşən Afəddin oğlu və xüsusi təyinatlı dəstədə istehkamçı çavuş Yunanov Aydın Fəzail oğlu tikinti materialları gətirən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun sakini vətəndaş Rəhimov Xaliq Şabran oğluna məxsus "Opel" markalı 99-EE-104 dövlət nömrə nişanlı avtomobilinə baxış keçirərkən avtomobildən 5 ədəd 7,62 mm-lik boş güllə, 1 ədəd əleyhqaz, 1 ədəd Gürcüstan Respublikasına aid mobil telefon nömrəsi aşkar edilmiş və Sabunçu rayon polis İdarəsinin məsul əməkdaşına aktla təhvil verilmişdir. Faktla bağlı araşdırma aparılır.

Daha bir qanun pozuntusu «Avropa Oyunları parkı» ərazisində xidmət aparan mühəndis qrupunun üzvlərinin sayıqlığı nəticəsində aşkar olunub.

İyunun 4-də, təqribən saat 14:15 radələrində mayor Məmmədov Vüqar Təhməz oğlu, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Cəfərov Vüsal Sabir oğlu, əsgər Vəliyev Etibar Zalış oğlu və əsgər Rəhimov Zamin Əlihüseyn oğlu «Audi» markalı 90-GG-904 dövlət nömrə nişanlı Tərtər rayonu Kolanlı kənd sakini vətəndaş Nərimanov Ziya İlham oğluna məxsus avtomobilə baxış keçirərkən 1 ədəd pnevmatik tapanca, 1 ədəd dolu və 1 ədəd boş daraq, 1 ədəd boş qaz balonu, külli miqdarda

Azərbaycan manatı və ABŞ dolları götürülüb. Saxlanılan şəxs Səbail rayon polis İdarəsinin məsul əməkdaşına təhvil verilmişdir. Faktla bağlı araşdırma aparılır.

Bütün baş verənlər bir daha təsdiq edir ki, Daxili Qoşunların hərbi qulluqçuları həqiqətən üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir və onlara həvalə olunmuş obyektlərin mühafizəsində nümunəvi xidmətləri ilə fərqlənirlər.

gizir N.Rzayeva

ŞƏXSİ HEYƏT VƏZİFƏLƏRİN İCRASINA MƏSULİYYƏTLƏ YANAŞIR

İctimai asayişin və ictimai təhlükəsizliyin sadiq keşikçisi olan Daxili Qoşunlar paytaxt Bakı ilə yanaşı, regionlarda da sabitliyin, eləcə də hüquqəzidd əməllərin qarşısının alınmasında digər hüquq-mühafizə orqanları ilə birgə fəaliyyət göstərir. Bu baxımdan Cənub bölgəsində yerləşən 25033 saylı hərbi hissə üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

Hərbi hissədə xidməti ezamiyyətdə olarkən bunun bir daha şahidi oldum. Hissə komandiri polkovnik Alim İsmayılov döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması üçün bir sıra tədbirlərin həyata keçirildiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçuların əsasən fiziki və atəş hazırlıqları diqqət mərkəzində saxlanılır. Umumiyyətlə, bütün məşğələnin hissə komandanlığının ciddi nəzarəti altında keçirildiyini deyən hissə komandiri şəxsi heyatin mənəvi-psixoloji durumunun yüksək olduğunu vurğuladı.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Nəriman İsayev isə şəxsi heyatin mənəvi-psixoloji durumundan danışarkən hərbi qulluqçularda ruh yüksəkliyinin günü-gündən artdığını nəzərə çatdırdı. Bildirdi ki, döyüş hazırlığına təşə edən ən vacib amil yalnız nizam-intizam və yüksək mənəvi keyfiyyətlərdir. Komandir müavini sadalanan xüsusiyyətlərin hər bir hərbi qulluqçuda formalaşması istiqamətində aparılan işlərin davam etdirildiyini sözlərinə əlavə etdi.

Qabaqcıl bölüklər barədə material toplayarkən ilk olaraq komendant bölüyündən başladım. Bölük komandiri kapitan Zamiq Rüstəmov komendant bölüyünün həyata keçirdiyi qarovul xidməti barədə danışdı. Bildirdi ki, tapşırılmış obyektlərin, hərbi şəhərciyin etibarlı mühafizəsinin təşkili üçün bir neçə vacib şərtlər mövcuddur. Bunlara xidmətdə ayıq-sayıqlıq, dözümlülük kimi faktorlar da daxildir. Xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin qənaətbəxş olduğunu deyən kapitan Z.Rüstəmov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini ön çəkdi. O, təlim və məşğələlərin təşkil olunub keçirilməsində taqım komandiri leytenant Ramin Abdullayevin əməyini qeyd etdi. Leytenant R.Abdullayev nəzəri məşğələlərin şəxsi heyatin bilik və bacarıqlarının təkmilləşdirilməsinə, hərbi savadlarının artırılmasına təkan verdiyini dedi. O, yüksək fiziki gəstərici, geniş hərbi savada malik, eləcə də mənəvi cəhətdən sağlam olan əsgərin etibarlı mühafizəçi olduğunu vurğuladı. Deyilənlərə misal olaraq, nümunəvi xidmətdə seçilən qarovul rəisi kiçik çavuş Ramil Mirzəliyevin adını çəkdi.

Kiçik çavuş R.Mirzəliyev tərəfindən xidmətin təşkili, saatdarların postlarda ayıq-sayıqlığı gün ərzində dəfələrlə yoxlanılır. O, həmçinin hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili, onların vaxtlı-vaxtında qidalanmasına da ciddi nəzarət edir.

Qarovul rəisinin köməkçisi əsgər Müseyib Məmmədov, əsgər Fərhad Məmmədov, əsgər Xəyal Qəhrəmanov və əsgər Murad Məmmədov xidmətdə əzmkarlıq nümayiş etdirən hərbi qulluqçular kimi xarakterizə edildilər.

Hərbi hissənin döyüş tapşırığında əsas qüvvə olan "Gürzə" şərti adını daşıyan xüsusi təyinatlıların fəaliyyəti qənaətbəxşdir. Dəstə komandiri vəzifəsini icra edən baş leytenant Camal Nəcəfov qarşıda duran vəzifələr barədə ətraflı məlumat verdi. Bildirdi ki, silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi dəstənin əsas vəzifələrindəndir. O, bu istiqamətdə gündəlik praktiki olaraq şəxsi heyətlə xüsusitaktiki hazırlıq məşğələlərinin keçirildiyini söylədi.

Əzamiyyətimin ertəsi günü hərbi hissə komandirinin nəzarəti ilə keçirilən xüsusitaktiki təlim-bina əməliyyatının canlı izləyicisi oldum. Binada gizlənmiş cinayətkarların zərərsizləşdirilməsi təlimini "Gürzə"lər müvəffəqiyyətlə başa vurdu. Dəstə komandiri praktik məşqlərin peşə vərdişlərinin artırılmasına böyük təkan verdiyini diqqətə çatdırdı. Dəstənin hərbi qulluqçularından fəallıqları ilə seçilən leytenant Tural Qurbanovun, gizir Kamran Babayevin, baş çavuş Röyal Abdullayevin, çavuş Ruslan Məmmədovun adlarını qeyd etdi.

Xüsusi təyinatlılarımızın təlimlər zamanı göstərdikləri fədakarlıq hər hansı bir qarşıya çıxa biləcək qəflətə tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməyinə əminlik yaradır.

baş leytenant T.Əlizadə

NÜMUNƏVİ XİDMƏT

Kiçik çavuş Kənan Fərəczadə 1992-ci il fevralın 21-də Bakı şəhərində dünyaya göz açıb. 2010-2014-cü illərdə Azərbaycan Texniki Universitetinin "Texnoloji maşın və avadanlıqlar mühəndisliyi" fakültəsində ali təhsil alıb. 2014-cü ilin iyul ayından Daxili Qoşunların 25033 saylı hərbi hissəsinə müddətli həqiqi hərbi xidmət keçməkdədir. Kiçik çavuş K.Fərəczadə çevikliyi və fəallığı ilə fərqlənən hərbi qulluqçulardandır. Komandirləri də onu müsbət xarakterizə edir. Kənan ona verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirir. O, fiziki hazırlıq baxımından yüksək göstəricilərə malikdir. Elə bu baxımdan ötən ay daxili işlər orqan və hissələri arasında keçirilən idmanın coxnövçülük yarışında iştirak etmiş və II yerə layiq görülmüşdür. Kiçik çavuş K.Fərəczadə daha yüksək turnirlərin qalibi olmaq niyyətindədir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nail Mirzəzadə 1992-ci il noyabrın 27-də Lənkəran rayonunda dünyaya gəlib. O, 2011-ci ilə qədər orta məktəbi bitirdikdən sonra Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub.

2014-cü ildən Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin Xüsusi vasitələrin təbiqi dəstəsində xidmətini davam etdirir. Xidmətə başladığı ilk günlərdən intizamı, məsuliyyəti və cəsarəti ilə dəstə komandirinin rəğbətini qazanan hərbi qulluqçu verilən tapşırıqların icrasına olduqca ciddi yanaşır. Fiziki hazırlıq məşğələlərində xüsusilə fərqlənən əsgər N.Mirzəzadə 12 yaşdan idmanın boks növü ilə məşğul olur. Peşəkar idmançı kimi formalaşan hərbçi yeddi dəfə zona birincisi olmuş, həmçinin Lənkəran rayonunda Ümummilli Lider Heydər Əliyev adına keçirilən boks üzrə turnirdə qızıl medala layiq görülmüşdür.

Əsgər N.Mirzəzadə torpaqlarımızın işğal altında olduğu bir vaxtda hərbçi kimi Vətənimizin bütövlüyü, dövlətimizin suverenliyi və xalqımızın firavanlığı naminə elində gələni əsirgəməyəcəyini dedi.

Əsgər Albert İsrafilov 1996-cı il mayın 20-də Qusar rayonunun Hil kəndində anadan olub. Orta təhsilini doğma kənddə başa vurduqdan sonra 2014-cü ilin oktyabr ayından Daxili Qoşunların 12318 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçməkdədir. Qısa müddət ərzində hərbçilik həyatına uyğunlaşan Albert bilik və bacarığı sayəsində kollektiv arasında hörmət qazanıb. O, həm də xüsusi istedadı ilə fərqlənir. Bölüyün gündəlik həyatını və fəaliyyətini əks etdirən divar qəzetinin rəssamıdır. Dediyinə görə, rəsm çəkmək onun ən çox sevdiyi məşğuliyyətidir. Qəzetdə işıqlandırdan mövzulara uyğun şəkillərin çəkilməsində əlindən gələni əsirgəmir. İstəyir ki, qəzetin hər buraxılışı daha rəngarəng, daha maraqlı olsun. O, qoşunlarda əsgərlər arasında rəsm yarışının keçirilməsini və bu tərəfdən qalib olmaq arzusunu da diqqətə çatdırdı.

baş leytenant T.Əlizadə,
gizir N.Rzayeva

MƏQSƏD BİRDİR: DÖYÜŞ HAZIRLIĞINI QORUYUB SAXLAMAQ

Şəxsi heyət qarşıya qoyulmuş tapşırığı yüksək peşəkarlıqla yerinə yetirməyə hazırdır

Şəxsi heyət üzrə İdarənin zabitlərinin məqsədli qrup tərkibində növbəti xidməti ezamiyyəti Azərbaycanın, o cümlədən dünyanın qədim tarixə malik, maddi-mədəniyyət abidələri, ədəbiyyatı və incəsənəti ilə zəngin olan Naxçıvan Muxtar Respublikasına oldu. Təbii ki, məqsəd Daxili Qoşunların Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində bir sıra sahələrin yoxlanılmasından və müvafiq köməkliyin göstərilməsindən ibarət idi. Polkovnik-leytenant Aydın Nağıyevin rəhbərlik etdiyi qrupda kapitan Əfqan Qurbanlı ilə yanaşı, mən də təmsil olunurdum.

"Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var..."

Əvvəlcə hərbi hissə komandiri polkovnik İlkin Əsədova təqdim olunduq və gəlişin məqsədi barədə məruzə etdik. Hissə komandiri Daxili Qoşunların Baş İdarəsindən gələn məqsədli qrupların ümumi işə - qarşıda duran tapşırıqların yerinə yetirilməsinə müsbət təsirindən söz açaraq məqsədin bir olduğunu diqqətə çatdırdı: "Yani bu gün qarşımızda duran ən əsas tələb Azərbaycan əsgərinin dünyanın ən güclüləri sırasında olmasını təmin etməkdirsə, böyük fəxr hissi ilə deyə bilərəm ki, artıq buna nail olunub. Bütün bunlar əlbəttə ki, dövlətimizin gücü - xalqa olan sevgisi, vətəndaşına verdiyi böyük qiymət sayəsində qazanılıb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sözlərilə, desək, Azərbaycan güclü dövlətdir və onun güclü ordusu var".

Polkovnik İ.Əsədov qeyd etdi ki, bu gün şəxsi heyət xüsusi qayğı ilə əhatələnib. Naxçıvan Muxtar Respublikasının rəhbərliyi hər dəfə hərbi hissədə olarkən şəxsi heyatlə genişməzmunlu söhbətlər aparır, onların istək və arzularını dinləyir. Umumiyyətlə, xidmətin yüksək səviyyədə təşkili üçün tələb olunan bütün zəruri vasitələrdən istifadə edilir. Elə onun nəticəsidir ki, şəxsi heyatin döyüş ruhu, döyüşçü əzmi çox yüksək səviyyədədir.

Vətənini sevən əsgər onun yolunda canından da keçər...

Hərbi qulluqçuların mənəvi-psixoloji durumu ilə bağlı söhbət hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Şahin Baylərovla davam etdirdim. O, qeyd etdi ki, şəxsi heyatin döyüş ruhunun yüksəldilməsi istiqamətində vacib məqamlar var ki, ilk növbədə onlara əmək etməlisən. Birinci şərt hər bir hərbi qulluqçuda Vətən sevgisini daha da alovlandırmaqdır. Bu birmənalı olaraq bələdir - Vətənini sevən əsgər onun yolunda canından da keçər. Polkovnik-leytenant Ş.Baylərov xüsusi olaraq vurğuladı ki, sözsüz, hər kəs öz yurdunu, böyüyün boya-başa çatdığı ölkəsinin tarixini öyrənməli, qəhrəman sərkərdələrini tanımalı və onların ənənələrini yaşatmağı özünə borc bilməlidir: "Hər bir əsgərimiz, gizirimiz, zabitimiz dərindən dərk edir ki, Azərbaycanın tarixi əraziləri, o cümlədən Naxçıvan zaman-zaman xarici qüvvələrin, yadellilərin hücumlarına məruz qalıb. Tarixin müxtəlif dönəmlərində düşmənlərimiz bizim sərvətlərimizi mənimsəmək məqsədilə dəfələrlə qırğınlar törədiblər, Azərbaycanı ələ keçirməyə cəhd ediblər. Lakin son məqamda igid oğullarımız tərəfindən bunun qarşısı alınıb. Bu gün də ölkəmiz müharibə şəraitində yaşayır və biz hər tarixi torpaqlarımızı işğaldan azad edənə qədər var qüvvəmizdə xidmətimizi davam etdirəcək, sıralarimizi əsirgəməyəcəyik".

O, tərbiyə işinin keyfiyyətinin artırılmasında baş leytenant Orxan Seyidovun da xidmətini müsbət xarakterizə etdi. Müvafiq tərbiyə planına uyğun olaraq, keçirilən məşğələlərə mütəmadi olaraq nəzarət edən Tərbiyə bölməsinin rəisi - baş təlimatçı baş leytenant O.Seyidov çox çalışqan, bacarıqlı və savadlı zabitdir. Vəzifə borcunun məsuliyyətini dərindən dərk edən bölmə rəisi şəxsi heyatin mənəvi-psixoloji cəhətdən sağlamlığı, nizamnamələrin tələblərini sözsüz yerinə yetirmələri, etik davranış qaydalarına ciddi riayət etmələri üçün elində gələni əsirgəmir.

Etibarlı mühafizə...

Hərbi hissənin etibarlı mühafizə və müdafiəsini Komendant bölüyü təşkil edir. Bölükdə ciddi nizam-intizam hökm sürür. Qarovul mənteqəsində olarkən qarovul nəfərləri

rində xidmətə yüksək səviyyədə münasibət özünü büruzə verirdi. Qarovul rəisinin köməkçisi əsgər Elmeddin Hacıyevin fikirlərinə görə, xidmətin keyfiyyəti, səmərəli qurulmasının ən vacib şərtlərindən biri müvafiq hərbi nizamnamələrin tələblərinə ciddi riayət olunmasıdır. Yeni, təcrübə göstərir ki, nizam-intizamlı hərbi qulluqçu üzərinə düşən hər bir çətinliyin öhdəsindən gələ bilir, verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşır. Digər tərəfdən, Naxçıvan şəharinin xüsusi sərt iqlimi burada xidmət edən hərbi qulluqçulardan möhkəm iradə və dözümlülük tələb edir. Hərbçiyə xas olan bu keyfiyyətləri qarovul nəfərlərinin hər birində görmək olar.

Fiziki və mənəvi-psixoloji hazırlığa malik olan şəxsi heyət peşə vərdişlərinin artırılması istiqamətində bütün güclərini səfərbər etdiklərini dedilər. Bütün bunlar qəflətən qarşıya çıxa biləcək maneələrin aradan qaldırılmasında başlıca rol oynayır.

Şəxsi heyətlə daima hərbi vətənpərvərlik mövzusunda fərdi və kollektiv söhbətlər aparılır. Sözsüz ki, mənəvi ruh olmayan yerdə yüksək döyüş hazırlığından danışmağa dəyməz.

Qarovul nəfərləri əsgərlər Bayram Mahmudov, Karim Kərimov, Əlihüseyn Məmmədov, Sadiq Qahramanov xidmətin düzgün təşkil olunmasında bütün səylərini birləşdirərək uğurlu nəticələrin əldə olunmasında fəallıq göstərirlər.

İstənilən iqlim şəraitində xüsusi döyüş hazırlığına malik "Panter"lər

"Panter" şərti adını daşıyan Xüsusi təyinatlı dəstənin xidmətinə də toxunmaq istərdim. Dəstənin qərargah rəisi leytenant Zaur Əliyev hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi istiqamətində müntəzəm olaraq təlim və məşğələlərin keçirildiyini bildirdi. Dəstə komandirinin xüsusi hazırlıq üzrə müavini mayor Şahin Əliyev də şəxsi heyatin hazırlığında üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirir. Ümumi nəticənin əldə olunması üçün dəstənin komandir heyəti səylərini birləşdirərək, müvafiq kompleks tədbirləri ciddi nəzarətdə saxlayırlar. Ərazinin relyefi nəzərə alınaraq təlimlər real şəraitə uyğun keçirilir. Şəxsi heyatlə davamlı olaraq, fiziki və atəş hazırlığı məşğələləri, gecə təlimləri keçirilir. Məqsəd şəxsi heyatin fiziki dözümlülüyünün artırılması, mənəvi-psixoloji durumunun yüksəldilməsidir.

Təlim məşqləri bitdikdən sonra buraxılan nöqsanlar müzakirə olunur və növbəti dəfə bu çatışmazlıqların aradan qaldırılması istiqamətində səylər gücləndirilir. Hər bir qrup komandiri tabeliyində olan şəxsi heyətə real nümunə olmağı bacarır. Qeyd edim ki, təlimlərdə göstərdiyi fəaliliğə görə, leytenant Mütəllim Əliyevin komandiri olduğu qrup dəstədə birincidir.

Dəstənin baş çavuşu kiçik gizir Oktay Əliyev də üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. O, hərbi qulluqçuların nizam-intizamına, müvafiq zəruri ləvazimatlarla təminatına ciddi nəzarət edir. Şəxsi heyatin xarici görünüşü, sağlamlığı, ümumilikdə təlimə hazırlıqları müntəzəm olaraq yoxlanılır və bu barədə qrup komandirinə məruzə edilir.

Dəstənin idmançı hərbi qulluqçularının içində intizamı və bacarığı ilə seçilən baş çavuş Rəşad Həsənov cüdo idmanı növü üzrə iki dəfə Azərbaycan çempionu adına layiq görülüb. Bütün təlimlərə böyük həvəslə qatılan baş çavuş R.Həsənov daima öz üzərində çalışması səbəbindən məşğələlərdə ən yüksək göstəricilərə nail olur. Özünün dediyi kimi, əsl hərbçi güclü iradəyə, əqidəyə, sağlam düşüncəyə, xarakterə malik olmalıdır.

...bele olan halda uğurlar bir-birini əvəz edir

Xüsusi vasitələrin təbiqi dəstəsinin komandiri mayor Mənaf Camalov öz işinin məsuliyyətini dərk edərək dəstədə keçirilən məşğələlərin Daxili Qoşunlar Komandanının müvafiq direktivinə və tədris proqramına əsasən, təşkil olunmasını və bunun üçün əvvəlcədən məşğələ cədvəllərinin tərtib edilməsini vurğuladı. Hərbi qulluqçularda müəyyən bacarıqlar olmasa da, hər kəs bu qaydalara riayət edərək digər əsgər yoldaşlarına sözün əsl mənasında nümunədirlər. Verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirirlər. İstər ictimai-siyasi hazırlıq məşğələləri, istərsə də fiziki, atəş hazırlığında daim xüsusi bacarıq nümayiş etdirirlər.





Həmçinin zəiflik göstərən yoldaşlarına əllərindən gələn hər cür köməkliyi edir və onların da nümunəvi olmasına çalışırlar. Xüsusən savadı və dünyagörüşü baxımından hamıdan irəlidə olan əsgər Nicat Əmiraslanovun yoldaşlarına göstərdiyi diqqət və qayğı təqdirəlayiqdir. Ali təhsilli olması hər cəhətdən istər xidmətə münasibətdə, istərsə də əsgərlərdə davranışında özünü büruzə verir. Adlarını sadaladığım nümunəvi hərbi qulluqçularımız asudə vaxtlarının səmərəli şəkildə təşkil olunub keçirilməsində komandirlərinə yardımçı olurlar.

taktiki təlimlər təşkil olunub keçirilir.

Hərbi qulluqçularda fərdi məsuliyyətin artırılması, vətənə, dövlətə sədaqət hissinin aşılanması ilə yanaşı, həm də onların mənəvi-psixoloji durumunun daim yüksək səviyyədə olması da vacib şərtlərdən biridir. Mayor M.Camalov, eyni zamanda tabeliyində olan hərbi qulluqçuların şəxsi problemlərinə qayğı ilə yanaşır. Dediyinə görə, hər bir komandir tabeliyində olan hərbi qulluqçunun şəxsi-mənəvi keyfiyyətlərinə fərdi olaraq yanaşmalı və onun bacarığına adekvat qiymət verməlidir. Ancaq bele olan halda uğurlar bir-birini əvəz edir.

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Abbas Bağırovun da müsbət xidmətini qeyd etmək istərdim. Şəxsi heyatin mənəvi-psixoloji durumunun yüksəldilməsi məqsədilə həyata keçirilən mühüm tədbirlərdə, eyni zamanda hərbi qulluqçuların mənəvi zövqünün formalaşmasında, ruh yüksəkliyinin davamlılığında, bir-birinə qarşı davranış qaydalarının müsbət yöndə dəyişməsində onun xidməti danılmazdır.

Qrup komandiri gizir Müseyib Rəhimov, yarımqrup komandiri baş çavuş Ceyhun Allahverdiyev və baş çavuş Əbülfəz Əsgərov da müsbət xarakterizə edilən hərbi qulluqçular sırasındadır.

Nümunəvi xidmətilə seçilən əsgərlər

Əsgərlər Samir Babayev, Anar Mirzəyev və Nicat Əmiraslanov təminat bölüyündə hərbi xidmətlərini davam edtirirlər. Hər üçü günün nizam qaydalarına ciddi şəkildə riayət edərək digər əsgər yoldaşlarına sözün əsl mənasında nümunədirlər. Verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirirlər. İstər ictimai-siyasi hazırlıq məşğələləri, istərsə də fiziki, atəş hazırlığında daim xüsusi bacarıq nümayiş etdirirlər.

Müxtəlif çeşidli ədəbiyyatlarla zəngin kitabxana

Hərbi hissədə şəxsi heyətdə, xüsusilə də genc hərbi qulluqçularda hüquqi, hərbi və s. biliklərə böyük həvəsin yaradılması, onların maarifləndirilməsinə də böyük diqqət yetirilir. Bunu mütələ etmək üçün kitabxanada növbəyə duran şəxsi heyatin fəaliliğindan da görmək mümkün idi. Kitabxanada hərbi-tərəfli şəraitin yaradılmasında Tərbiyə bölməsində klub rəisi gizir Ramin Əliyevin və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elvin Cəfərovun müstəsna rolu var.

2004-cü ildə Naxçıvan Dövlət Universitetinin "Tarix" fakültəsini bitirən gizir R.Əliyev 2009-cu ilin yanvar ayından bu vəzifədə xidmət edir. Hərbi hissə komandanlığı onun xidmətindən razılığını bildirərək vəzifəsinin öhdəsindən layiqincə gəldiyini qeyd edir. Tədbirlərin, mədəni-kütləvi məşğələlərin təşkil olunmasına şəxsən nəzarət edən klub rəisi mədəni-maarif əmlaklarının qeydiyyatı, uçotu və saxlanılmasına da xüsusi diqqətlə yanaşır. Şəxsi heyətə tariximiz, ədəbiyyatımız, mədəniyyətimiz, eləcə də incəsənətimiz barədə dolğun məlumatların çatdırılmasında üzərinə böyük məsuliyyət düşdüyünü deyən klub rəisi kitabxananın bir çox sahələri əks etdirən ədəbiyyatlarla zəngin olduğunu vurğuladı. Hətta burada müxtəlif dillərdə nəşr edilmiş yerli və xarici ölkələrin ədəbiyyatlarına da rast gəlinir. Səliqəsahmana isə söz ola bilmez.

Yüksək maddi-texniki təminat - yüksək döyüş hazırlığı...

Şəxsi heyatin döyüş və mənəvi-psixoloji hazırlığı tələb olunan səviyyədədirsə, deməli hərbi hissənin maddi-texniki təminatında heç bir problem yoxdur. Nəticə etibarı ilə belə olan halda, şəxsi heyatin gündəlik tələbatları vaxtlı-vaxtında edilir, xidmət sahələrinin, bölmə və hissələrin zəruri ləvazimatlarla təchizatı yüksək səviyyədə həyata keçirilir. Hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini polkovnik Rasim Heydərovla söhbətimiz elə bu istiqamətdə oldu. Bütün qurumlarda, hərbi birləşmələrd